# "Qlobal Təkrar Emal Günü"ndə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə məlumat turu təşkil olunub












Ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili"nin elan olunması və COP29 kimi mötəbər tədbirin keçirilməsi çərçivəsində "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə məlumat turu təşkil olunub.

AZƏRTAC xəbər verir ki, ictimai şəxslərin, bloger, influenser və media nümayəndələrinin iştirak etdiyi məlumat turunda "Təmiz Şəhər" ASC-nin fəaliyyəti, Bakı şəhərində bərk məişət tullantılarının idarə edilməsi və təkrar emal prosesi ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, 2017-ci ildə ölkə başçısının iştirakı ilə açılışı olan Balaxanı Sənaye Parkı təkrar emal sahəsini inkişaf etdirmək məqsədilə yaradılıb. Müasir texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən Balaxanı Sənaye Parkı tullantıların təkrar emalı ilə məşğul olmaq istəyənlər üçün əlverişli məkandır. Dövlət tərəfindən burada fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət, torpaq, əmlak, əlavə dəyər vergisindən və istehsal məqsədilə idxal edilən texnoloji avadanlıqlar idxal rüsumundan azad olunur.

Sahibkarlar tərəfindən istehsal sahəsinə ümumilikdə 52 milyon manat investisiya qoyulub. Sənaye Parkının fəaliyyəti dövründə 229 milyon manat dəyərində istehsal edilən məhsulun 23 milyon manat həcmində olan hissəsi xarici ölkələrə ixrac edilib. 25 rezidentin qeydiyyatdan keçdiyi Balaxanı Sənaye Parkında 1126 yeni iş yeri yaradılıb.

Tur çərçivəsində qonaqlar Bakı bərk məişət tullantılarının yandırılması zavodunda da olublar. Məlumat verilib ki, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılışı olan zavod dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə qurulub və ətraf mühitin mühafizəsi sahəsində normativlərə tam cavab verir. İllik gücü 500 min ton olan zavodda tullantıların yandırılması nəticəsində il ərzində 200 mln kvt/saata qədər elektrik enerjisi əldə olunur. Bu isə 100 min ev təsərrüfatını elektrik enerjisi ilə tam təmin etməyə imkan verir.

Sonda tur iştirakçılarına "Təmiz Şəhər" ASC-nin fəaliyyətini əks etdirən broşürlər paylanılıb, onları maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində və Bakıda keçiriləcək COP29 öncəsi ictimai şəxslərin, bloger, influenser və media nümayəndələrinin ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmə işinə dəstək vermələrinin zəruri olduğu ifadə edilib.

Azərbaycan.- 2024.-19 mart, № 61.- S.6.